**UOT 336.713; 331.108**

***Günel Gündüz qızı SULTANOVA***
***Dissertant, Azərbaycan Texnologiya Universiteti,***
***gunel.bayramova.91@list.ru***

***Pəri Əmirəhməd qızı HƏSƏNOVA***
***iqtisad üzrə elmlər doktoru, professor***
***perihesenova80@gmail.com***
***10.30546/4.71.73001.2024.07***

# AZƏRBAYCANDA BANK SEKTORUNUN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN ƏSAS PARAMETRLƏRİ VƏ İNNOVASİYALARDAN ASILILIĞI

***Xülasə***

**Tədqiqatın məqsədi** – bank sektorunun rəqabətqabiliyyətliliyinin əsas parametrlərinin və innovasiyalardan asılılığının müəyyənləşdirilməsidir.

**Tədqiqatın metodologiyası** – tədqiqat işində müxtəlif yanaşmalardan, o cümlədən müqayisəli təhlil üsulundan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – bank sektorunun iqtisadiyyatın inkişafındakı əhəmiyyətliliyini nəzərə almaqla kredit resurslarına əlçatanlığın təmin edilməsi istiqamətində müəyyənləşdirilən tədbirlər tətbiqi əhəmiyyət kəsb edir.

**Tədqiqatın nəticəsi** –innovasiyası vasitəsilə banka birbaşa və ya dolayı yolla gəlir gətirən, bank fəaliyyətində keyfiyyətli dəyişikliklərə gətirib çıxaran məhsul, xidmət və ya texnologiyaların tətbiqi hesabına bankların iqtisadiyyata təsirinin əsaslandırılması tədqiqatın əsas nəticəsidir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – bank sektorunun rəqabətqabiliyyətliliyinin əsas parametrlərinin və innovasiyalardan asılılığının müəyyənləşdirilməsi araşdırmanın elmi cəhətdən əhəmiyyətini müəyyən edir.

***Açar sözlər: bazar payı, maliyyə sabitliliyi, rəqabət qabiliyyəti, keyfiyyət, xidmət səviyyəsi, bank məhsulu dəyəri, rəqəmsal bankçılıq.***

## *Giriş*

Müasir dövrdə ən qabaqcıl bank xidmətlərindən biri olan internet-bankçılıq gün keçdikcə daha da çox maraq qazanan və olduqca aktiv formada istifadə olunan bir xidmətdir. Internet-bankçılığın əsas mahiyyəti odur ki, müştərilər banka getmədən, onlayn rejimdə öz hesabı üzrə müxtəlif bank əməliyyatlarını apara bilər. Bu gün ölkəmizdə də bu sahənin inkişafı nəticəsində bir çox sahədə işlər sürətlənir. Məsələn, kartdan karta pul köçürmək, ödəniş etmək, pulun köçürülməsi üçün bank filialına getmək artıq vacib şərt deyil. Yalnız İnternetin olması kifayətdir ki, xüsusi proqram vasitəsilə müştəri ilin 365 günü, həftənin 7 günü, günün 24 saatı banka getmədən birbaşa İnternet vasitəsilə bank hesabının idarə edilməsini, kartdan istifadə, əmanət, kredit, pul köçürmələri və digər əməliyyatları həyata keçirsin. Virtual banklar etibarlı platformalar, şifrələmə və çoxfaktorlu audentifikasiya hesabına əsas diqqətini xidmətlərin təhlükəsizliyinə yönəltmişdir. Bu isə müştərilərin bank xidmətlərindən istifadəsi zamanı məlumatların qorunmasını təmin edir.

İnnovasiyalar – istənilən biznesin, xüsusən də bank sahəsində vacib bir komponentdir. Müştəri gözləntiləri daima artmaqdadır və belə bir vəziyyətdə öz rəqabət qabiliyyətini qorumaq üçün banklar daima innovasiyalar tətbiq etməlidirlər.

### *Bank sektorunda rəqabət qabiliyyəti anlayışı*

Bank sektorunda innovasiyaların ən mühüm amilləri aşağıdakılardır:

1) müştəri gözləntiləri;
2) texnoloji nailiyyətlər;
3) qanunvericilikdə dəyişikliklər;
4) rəqabət.

Bankların maliyyə bazarında mübarizə aparmaq qabiliyyəti birbaşa bank məhsullarının rəqabət qabiliyyətindən asılıdır. Bankın rəqabət qabiliyyəti məhsulun və ya xidmətin rəqib bank tərəfindən təklif olunan analoji məhsuldan həm ictimai tələbatın ödənilməsi imkanına, həm də məhsulun maya dəyərinə görə üstünlüyünü göstərir. [1, s. 444].

N.P.Kazarenkovanın fikrincə: “Bankın rəqabətqabiliyyətliliyi kredit təşkilatlarının bazara rəqabət qabiliyyəti yüksək olan xidmət və məhsulların çıxarılmasının potensial və real imkanları, həmçinin müştərilərin bütün tələblərinə cavab verən etibarlı və müasir bankın müsbət imicinin formalaşmasıdır”.

Bankın rəqabət qabiliyyəti maliyyə dayanıqlılığı, sabitlik və vicdanlılıq kimi parametrlərdən asılı olan, etibarlılıq amilindən birbaşa asılıdır. Bu da bir daha bankın inteqral rəqabət qabiliyyəti üçün maliyyə dayanıqlılığının zəruriliyini təsdiq edir.

İqtisadiyyat üzrə bir çox elmi nəşrlərdə bankın rəqabət qabiliyyəti ilə onun maliyyə dayanıqlılığı sinomim kimi qeyd olunur. Digər yanaşmalara əsasən, maliyyə dayanıqlılığı bankın rəqabət qabiliyyətinin əsas elementlərindən biridir. Bankın rəqabət qabiliyyəti bir çox parametrlərdən yaranan inteqral bir xarakteristikadır. Həmin parametrləri bir neçə qrupda birləşdirmək olar:

1. Kredit təşkilatlarının səmərəli fəaliyyəti üzrə göstəriciləri: aktivlərin həcmi və keyfiyyəti, xüsusi vəsaitlərin həcmi, kredit portfeli və onun keyfiyyəti, gecikdirilmiş ssuda öhdəliklərinin həcmi, bankın gəliri, aktivlərin rentabelliyi, bank kapitalının kifayətliliyi, kredit və faiz riski;
2. Bank xidmətlərinin rəqabət qabiliyyətini xarakterizə edən göstəricilər – müştəri üçün xidmətlərin rəqiblərin göstərdiyi analoji xidmətlərlə müqayisədə daha cəlbedici olması, xidmətlərin qiyməti və keyfiyyəti, geniş xidmət çeşidi, müştərilərə xidmət səviyyəsi və mədəniyyəti, satışdan sonra xidmətlərin keyfiyyəti, xidmətlərin satışı forması;
3. Bank xidmətləri bazarında bankların mövqeyini qiymətləndirən göstəricilər: ümumi ssuda öhdəliyi həcmində bank kreditlərinin payı, bank əməliyyatlarının gəlirlilik səviyyəsi, bankın nisbi kapitaltutumu əmsalı, filialların sayı, bankın korporativ idarə edilməsi keyfiyyətinin qiymətləndirilməsi, təşkilati-idarəetmə strukturunun səmərəliliyi və stabilliyi və s. [5, s.563].

***Banklarda innovasiyaların tətbiqinin əhəmiyyəti***

Müasir dövrdə bankın rəqabət qabiliyyətinə təsir göstərən ən vacib amillərdən biri də innovasiyaların tətbiqidir. Bu gün innovasiyalar bankın stabilliyi, rəqabət qabiliyyəti və dayanıqlı iqtisadi artımının ən mühüm amillərindən biri kimi çıxış edir.

Banklarda innovasiya fəaliyyətinin tətbiqini əsasən üç səbəblə qeyd etmək olar:

- dünya maliyyə bazarının və bank xidmətləri bazarının qloballaşması;
- bank və qeyri-bank sektoru arasında rəqabətin güclənməsi;
- dünya maliyyə böhranı.

Hazırda uğurlu bank fəaliyyətinin əsas şərtlərindən biri daimi yenilik siyasətinin həyata keçirilməsidir. Bu isə iqtisadiyyatın bugünkü vəziyyəti ilə səciyyələnən bir sıra amillərdən asılıdır:

- birincisi, bankla müştəri arasında olan münasibət tərəfdaşlıq prinsipinə əsaslanır. Bu isə o deməkdir ki, banklar təkcə müştəri kapitalının artırılmasına yox, həmçinin onlara yeni xidmətlər göstərməyə çalışırlar. Bu isə öz növbəsində bankların maliyyə-təsərrüfat fəaliyyətinin genişlənməsinə, xərclərin azaldılmasına, işgüzar fəaliyyətinin genişlənməsinə və gəlirlərinin artırılmasına zəmin yaradır;
- ikinci səbəbi bazar münasibətləri şəraitində banklar arasında olan rəqabətdir.

Uzunmüddətli dövrdə banklar öz rəqabətədavamlılıqlarını qoruyub saxlamaq üçün çoxvariantlı və qeyri-standart işgüzar qərarlar verməli, əməliyyatların orijinallığını təmin etməli, bank fəaliyyətinin bütün sahələrində innovasiyar tətbiq etməlidirlər;

- üçüncü səbəb, bahalı bank texnologiyalarının inkişafıdır. Məhz elmi-texniki tərəqqi bütün dünyada iqtisadi inkişafın əsas amili kimi tanınan innovativ proses anlayışı ilə sıx əlaqələndirilir. [7, s.10].

Ümumilikdə, bank fəaliyyətinin səmərəliliyi və onun bazarda rəqabət qabiliyyəti yeni bank məhsulu, texnologiyasının tətbiqindən asılıdır. Bununla belə, bank sektorunda yeniliklər təkcə

texniki və texnoloji inkişafdan deyil, eyni zamanda yeni biznes formalarının, yeni məhsul və xidmətlərin, maliyyə alətlərinin tətbiqindən asılıdır. Məhz innovasiyalar bankların iqtisadi inkişafını və onların rəqabətə davamlılığını təmin edir.

Professor İ.T. Balabanovanın fikrinə əsasən, “bank innovasiyası maliyyə innovasiyasının bir hissəsini təşkil edir. Bank innovasiyası – yeni bank məhsulu və ya əməliyyatı formasında, innovativ fəaliyyətin son nəticəsi kimi çıxış edir. İnnovativ fəaliyyət dedikdə isə, innovasiyaların yaradılması və reallaşdırılmasının innovativ prosesi başa düşülür”.

A.V.Oxlopkova, P.Druker, V.S.Vikulovanın fikirlərinə nəzər salsaq “innovasiya” və “yenilik” terminlərini müqayisə etmək də xüsusi maraq doğurur. Hər ikisi oxşar terminlər olsalar da, onların arasında müəyyən fərqlər var. İnnovasiya – yeniliyin praktiki olaraq reallaşdırılmasıdır. Hər bir yeniliyi innovasiya hesab etmək olmaz, innovasiya isə yeniliyin müsbət istiqamətə doğru təkmilləşməsidir. Yəni hər bir yenilik yaxşı nəticə əldə etmək mənasına gəlmir, qısaca onu qeyd etmək olar ki, innovasiya – hər hansı bir yeniliyin uğurlu tətbiqi və reallaşdırılmasıdır. [2, s.375].

Bank innovasiyalarının inkişafının müasir mərhələsində maliyyə texnologiyalarından istifadəçi sayı 15-20% artır.

Bank innovasiyalarının istifadə və tətbiqinin perspektivliyi üçün vacib olan şərtlər:

1) müasir informasiya texnologiyalarının inkişafı çərçivəsində unikal bank məhsulu və xidməti yaratmaq;

2) müştərilərin bank innovasiyalarına olan tələbatının artırılması məqsədilə son istehlakçıya yeni məhsul və xidmətlər haqqında tam məlumat vermək;

3) virtual telekommunikasiya, maliyyə texnologiyalarından istifadə etmək;

4) məlumatın və onun ötürülməsi kanallarının mühafizə səviyyəsini yüksəltmək;

5) innovativ fəaliyyətin inkişafı sahəsində bank işçilərinin bilik səviyyəsini artırmaq;

6) yeni texnologiyalardan istifadə edən və lazım gəldikdə banklara unikal perspektiv layihələr (startaplar) təqdim edən xüsusi şirkətlərlə qarşılıqlı əlaqə yaratmaq.

Beləliklə, rəqabətin bank sahəsində innovasiyalardan istifadə zamanı mühüm bir rol oynadığını qeyd etmək olar. Bunun üçün də öz rəqiblərini müəyyən etmək və müştərilərini qoruyub saxlamaq üçün banklar innovasiyalar tətbiq etməlidirlər.

Rəqabət qabiliyyəti səviyyəsini xarakterizə edən əsas göstəricilər: bazar payı, gəlirlilik və maliyyə sabitliyidir. Müəyyən bir bankın bazarda mövqeyini müəyyən edərkən, bu sadalananlardan daha çox bazar payı göstəricisindən istifadə olunur. Həmin göstərici iki funksiyanı daşıyır:

- bankın hal-hazırda bazarda nə dərəcədə uğurlu xidmət göstərdiyini göstərir;
- bankın bazarda olan rəqabət üstünlüklərini inkişaf etdirir.

Ümumilikdə, bazar payı göstəricisi bankın rəqabət qabiliyyəti səviyyəsini müəyyən etməyə və onun həyata keçirdiyi strategiyasının səmərəliliyinin qiymətləndirilməsi üçün xüsusi əhəmiyyət kəsb edir.

***Bankın rəqabət qabiliyyətinin müəyyən edilməsində reytinq agentliklərinin rolu***

Bankın rəqabət qabiliyyətinin müəyyən edilməsi üçün, onun vəziyyətini bazarda mövcud olan rəqiblərin vəziyyəti ilə müqayisə etmək lazımdır. Bank reytinqi isə kredit bazarında əsas rəqiblərin aşkar edilməsinə imkan yaradır.

Reytinq agentlikləri bunun üçün adətən bir sıra göstəricilərdən istifadə edirlər: bankın likvidliyi, aktivlərin keyfiyyəti, risk və onun idarə olunma səviyyəsi, passivlərin strukturu, menecment və s. Bu reytinqlərin əsas məqsədi bankların kənar dəstəyə arxalanmadan öz mövqelərini qiymətləndirə bilməsidir. Ümumilikdə, onlar bank strukturlarının sabitliyi haqqında ictimai və geniş yayılmış sübutlardır; həm kreditoru, həm də investoru yatırılan vəsaitlərin risklilik dərəcəsi haqqında məlumatlandırırlar. [9, s.15].

Bu gün dünya praktikasında bankların rəqabət qabiliyyətinin qiymətləndirilməsi üçün müxtəlif metodlar mövcuddur. Məsələn, 2004-cü ildə Ümumdünya İqtisadi Forumu tərəfindən Qlobal rəqabət qabiliyyəti indeksi təklif olunmuşdur, hansı ki milli rəqabət qabiliyyətinin qiymətləndirilməsi üçün çox böyük əhəmiyyət kəsb edən bir indeksdir, ona görə ki o, milli rəqabət qabiliyyətinin

həm mikro, həm də makroiqtisadi əsaslarını nəzərə alır. Qlobal rəqabət qabiliyyəti indeksi 12 komponent üzrə qruplaşdırılmışdır. Bunlar keyfiyyət, infrastruktur, makroiqtisadi sabitlik, sağlamlıq və ilkin təhsil, ali təhsil və peşəkar hazırlıq, əmtəə və xidmətlər bazarının səmərəliliyi, əmək bazarının səmərəliliyi, maliyyə bazarının inkişafı, texnoloji səviyyə, daxili bazarın həcmi, şirkətlərin rəqabət qabiliyyəti və innovasiya potensialı üzrə meyarlardır. Qlobal rəqabət qabiliyyəti indeksinin hər bir 12 komponenti bir-birilə sıx əlaqəlidir və bir-birinə qarşılıqlı təsir göstərirlər, bu isə hər hansı bir ölkədə hansı sahələri inkişaf etdirməyin lazım olduğunu göstərir. Qlobal rəqabət qabiliyyəti indeksi ölkənin iqtisadi inkişafının ümumiləşdirilmiş bir göstəricisidir, əhalinin həyat səviyyəsi və sosial inkişafının nəticəsi kimi çıxış edir.

Qlobal rəqabət qabiliyyəti indeksi ilə yanaşı bank və maliyyə sahəsində rəqabət qabiliyyətinin qiymətləndirilməsi üçün bir sıra yanaşmalar mövcuddur. Banklararası sahədə rəqabət qabiliyyətinin qiymətləndirilməsi üzrə əsas metodlar: Standard&Poor’s, Retail Bank Rank, Markswebb Rank&Report, Boston Consulting Group, Frank Research Group, RATE, CAMEL və s. Hər bir reytinq agentliyinin öz reytinq şkalası mövcuddur. Aşağıdakı cədvəldə reytinq və borc öhdəliklərinin yerinə yetirilmə qabiliyyəti müvafiq olaraq göstərilmişdir.

***Cədvəl 2.***

***Hər bir reytinq agentliyi üzrə reytinq şkalası***

| Öhdəliklərin yerinə yetirmə qabiliyyəti | Standard & Poor's | Fitch Ratings | Moody's |
|---|---|---|---|
| Rəqabətqabiliyyətliliyinin ən yüksək səviyyəsi | AAA | AAA | Aaa |
| Çox yüksək rəqabət qabiliyyəti | AA | AA | Aa |
| Yüksək rəqabət qabiliyyəti | A | A | A |
| Yaxşı rəqabət qabiliyyəti | BBB | BBB | BBB |
| Spekulyativ reytinq | BB | BB | BB |
| Kifayət qədər spekulyativ reytinq | B | B | B |
| Defolt real gözlənilir | CCC | CCC | Ccc |
| Defolt ehtimalı var | CC | CC | Cc |
| Defolt qaçılmazdır | C | C | C |
| Seçmə defolt | SD | - | - |
| Emitent ödənişləri vaxtında həyata keçirməyib | - | RD | - |
| Defolt elan olunub | | | |

Reytinqdən əlavə bu agentliklər gələcək 2-3 il üçün proqnozlar verirlər:

- “pozitiv” , yəni reytinqin nəticəsi arta bilər;
- “neqativ”, yəni reytinqin nəticəsi azala bilər;
- “sabit”, dəyişkənlik ehtimalı azdır.

AAA, AA, A və B reytinqləri investisiya, qalanları isə spekulyasiya xarakteri daşıyır.

Amerika sistemi olan “CAMEL” bütün təhlil olunacaq komponentlərin baş hərflərini özündə birləşdirir:

“C” – capital adequacy, bu kapitalın kifayətlilik göstəricisi;

“A” – asset quality, aktivlərin keyfiyyət göstəricisi;

“M” – management, idarəetmə keyfiyyətinin göstəricisi;

“E” – earnings, gəlirlilik göstəricisi;

“L” – liguidity likvidlik göstəricisi.

Markswebb Rank&Report fəaliyyətinin əsas istiqaməti banklarda internet məhsullarının öyrənilməsidir. Agentlik hər il üç növ araşdırma aparır:

- Retail Bank Rank – bankın korporativ saytının səmərəliliyini araşdırır;
- Internet Banking Rank – internet-bankçılığın səmərəliliyini araşdırır;

- Mobile Banking Rank – mobil bankçılığın səmərəliliyini araşdırır

Araşdırma metodikası iki mühüm təhlil mərhələsindən ibarətdir:

1) Etalon məhsulun yaradılması. Etalon məhsul istifadəçi tələblərinin çoxsaylı araşdırmaları və texnoloji innovasiyaların ekspert qiymətləndirilməsi, təhlükəsizlik faktorları və digər əhəmiyyətli şərtləri nəzərə almaqla formalaşır;

2) Bençmarkinq – bazarda mövcud olan məhsulun etalon məhsulla müqayisəsi. Bu müqayisəli təhlil nəticəsində bu sahədə olan ən yaxşı məhsullar aşkar olunur, həmçinin onların ən optimal üsulları müəyyən olunur.

Markswebb Rank&Report agentliyi öz araşdırmalarında həm istifadəçi, həm də ekspert fikirlərini nəzərə alır. Bu da qiymətləndirmənin daha dəqiq olmasına zəmin yaradır. Markswebb Rank & Report agentliyi xüsusilə də rəqəmsal bankçılığın araşdırılması üçün ən optimal variantdır. [6].

***Müasir dövrdə internet-bankçılığın əhəmiyyəti***

İnternet-bankçılıq sisteminin yaranması 20-ci əsrin 80-ci illərini əhatə edir. Həmin dövrdə ABŞ-da Home Banking sistemi yaradılmışdır. Bu sistem vasitəsilə əmanətçilər telefon vasitəsilə bankın kompüterinə qoşularaq öz hesablarını izləyə bilirdilər. İnternet və İnternet-texnologiyaları inkişaf etdikcə banklar bu cür sistemləri tətbiq etməklə müştərilərə öz hesabları barədə məlumatı İnternet vasitəsilə əldə etməyə imkan yaratmış olurdular. İlk dəfə hesabdan hesaba pul vəsaitlərinin köçürülməsi xidməti ABŞ-da Stenford federal kredit birliyi tərəfindən 1994-cü ildə tətbiq olunmuşdur. 1995-ci ildə isə ilk virtual bank – Security First Network Bank yaradılmışdır. Lakin müştərilərin bu yeniliyə kifayət qədər inam göstərməməsi nəticəsində bank elə də böyük uğur qazana bilməmişdir. Onlayn-bankçılıqda uğur qazanmış ilk bank – "Bank of America" olmuşdur. E-bankçılıq xidmətlərini göstərən bu bankın müştərilərinin sayı 2 mln. keçmişdir. Bu gün Avropa və Amerikada onlayn-bankçılıq xidmətindən əhalinin 50%-dən çoxu, yeniyetmələr arasında isə 90%-dən çoxu istifadə edir.

Ümumilikdə, virtual bank hesabı dedikdə, banka gəlmədən, tamamilə onlayn fəaliyyət göstərən maliyyə hesabı başa düşülür. Virtual bank ənənəvi bankın təklif etdiyi bütün xidmətləri, hesab açma, kredit və kredit kartları və s. mobil tətbiqi vasitəsilə həyata keçirir. Bundan əlavə, uzunmüddətli növbə gözləmədən, onlayn şəkildə bank xidmətlərindən istifadə imkanı yaradır. [8].

İnnovasiya hər hansı bir biznesin, xüsusən də bank işinin uğurunun vacib komponentidir. Müştəri gözləntiləri artdıqca, banklar rəqabətə davamlı olmaq üçün xarici mühitə daim uyğunlaşmalı və yeniliklər tətbiq etməlidirlər. İnnovasiyaları sürətləndirməyin yolu əsas bank platformasından istifadə etməkdir.

Ümumilikdə, qlobal miqyasda inkişaf etməkdə olan ölkələr onlayn-bankçılığın hər bir fərd arasında təbliğ edilməsi üzərində çalışırlar. Zaman ötdükcə Azərbaycanda da onlayn-bankçılıq sistemi hər bir vətəndaş və bank müştərisi arasında adiləşərək genişlənəcəyi proqnozlaşdırılır.

İnkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanda internet-bankçılığın inkişafının yayılma sürəti çox aşağıdır. Buna səbəb kimi Azərbaycanda bank qanunvericiliyinin və ya bank bazarının sağlam və rəqabətə davamlı olmamasıdır. Azərbaycanda müştərilərin və bank bazarının formalaşdığı dövrdən bəri, qeyri-sağlam və zəif bank sistemi onun inkişafını son dərəcədə yavaşlatdı. Nəticədə də ölkədə bankın idarə edilməsi digər ölkələr kimi müasir korporativ standartlara cavab verə bilmədi və bu da Azərbaycanın bank sisteminin virtual və ənənəvi formada inkişafının qarşısını aldı. Nəticə etibarilə, internet-bankçılığın tipik bank müştəriləri arasında yayılma sürəti olduqca yavaş olsa da, İnternetin istifadəsi ilə bağlı məlumatların sürətinin yerli sakinlər arasında yayıldığı kimi yayılacağı proqnozlaşdırılır. [4, s.200].

***Neobankların üstün və mənfi cəhətləri***

Son dövrlərdə bank sisteminin sürətlə inkişaf etməsi ilə bağlı ənənəvi bankçılıqla yanaşı neobankların yaradılması və inkişafı xüsusi diqqət çəkir. Neobank dedikdə, fiziki şöbələri olmayan və yalnız onlayn-bankçılıqdan istifadə etməklə işləyən banklar başa düşülür.

Neobankların üstünlükləri ondan ibarətdir ki, neobankinq xidmətlərinə çıxışı müştərilərin yalnız müvafiq kompyuter və ya mobil tətbiqi vasitəsilə mümkündür.

Neobankların göstərdiyi xidmətlər çeşidi ənənəvi banklar kimi elə də geniş deyil. Onların gəlirlərinin əsas hissəsi əsasən müştərilərin debet kartları vasitəsilə ödənişlərindən əldə olunan komisyon haqlardan ibarətdir.

Neobank termini 2016-cı ildən maliyyə texnologiyalarına əsaslanan maliyyə provayderlərini təsvir etmək üçün tətbiq olunur. Ənənəvi banklardan fərqli olaraq onların bir neçə üstün cəhətini sadalamaq olar:

1) Asan giriş imkanı. Neobanklar müştərilərə bankın filialına getmədən, günün 24 saatı ərzində istənilən vaxtda kompyuter və ya mobil tətbiqi vasitəsilə öz müştərilərinə bank əməliyyatlarının bir çox hissəsini həyata keçirməyə imkan yaradır. Bundan əlavə, neobankda ənənəvi bankdan fərqli olaraq hesabın açılması üçün ərizənin təqdim olunması daha rahatdır. Bəzi neobanklar bank tarixçəsini yoxlamırlar, yəni, əgər müştərinin keçmişdə olan bütün hesabları bağlanıbsa, böyük ehtimalla hesab təsdiqlənəcək;

2) Daha aşağı komissiya, rəqabət qabiliyyətli tariflər. Neobanklar üçün filialın saxlanması üçün ödəniş etməyə ehtiyac yoxdur. Bəzi provayderlər isə aylıq ödənişlərin azalması və ya olmaması formasında, yüksək faiz dərəcəsi qazanmaq imkanı kimi formada bu qənaəti müştərilərə ötürür. Məsələn, əgər müştəri ənənəvi bankda hər ay 15 manat ödəyirdisə, neobanka keçid zamanı 130 manat qənaət edə bilər. İnzibati xərclərin aşağı səviyyədə olması öz növbəsində müştərilərinə əməliyyatlar üzrə aşağı komissiyalar təklif etməyə imkan yaradır;

3) Kredit müraciəti zamanı ənənəvi banklarla müqayisədə sadələşdirilmiş prosedurlar. Kredit üçün müraciət edən şəxsin kredit riskini təhlil etmək üçün daha müasir texnologiyaların tətbiqi sayəsində neobanklardan kredit almaq prosesi daha sərfəli olur;

4) Maliyyə analitikası üçün yeni həllər. Adi bank xidmətlərinə əlavə olaraq, neobanklar hesabdakı pul vəsaitlərinin hərəkətinin avtomatik təhlili üçün xidmətlər göstərir və eyni zamanda istifadəçilərinə fərdi maliyyə həlləri təklif edirlər;

5) Depozitlər üzrə nisbətən yüksək faiz dərəcələri. Adi banklardan fərqli olaraq neobanklar filial şəbəkəsinin olmaması və işçi sayının isə az olduğu üçün əmanətlər üçün daha yüksək faiz təklif edə bilirlər.

Neobankların üstün cəhətləri ilə yanaşı çatışmayan cəhətləri də vardır. Məsələn, müştərilərə xidmət göstərilməsində mövcud olan məhdudiyyətlər. Filial olmadan müştərilərə xidmət göstərilməsi zamanı müəyyən məhdudiyyətlər qaçılmazdır. Bəzi təchizatçılar müştərilərə xidmət göstərilməsi üçün hesab və ya telefon nömrəsi təklif edirlər, bəzi hallarda isə onlayn-çatlar da mövcud ola bilər. Bütün bu sadalanan variantlar əsas bank suallarının həlli üçün faydalı ola bilər. Lakin əgər hesab donubsa və ya dələduzluqdan şübhələndikdə bağlanıbsa, bu zaman artıq bu problemlərin həlli üçün səlahiyyətli şəxsin köməyi üçün onunla əlaqə yaratmaq çətin olacaq.

Göstərilən xidmətlərin sayının az olması da neobankların çatışmayan xüsusiyyətlərindədir. Bəzi rəqəmsal bank xidmətlərini neobank təqdim etsə də, onlardan bir çoxu üçün daha geniş bank imkanlarının çatışmazlığı müşahidə olunur. Məsələn, depoziti nağd şəkildə asanlıqla qəbul etmək. Bundan əlavə, onlar az sayda xidmətlər təklif edə bilərlər, yəni neobank xərc hesabı təklif edə bilər, amma depozit sertifikatı, investisiya imkanları təklif edə bilməz.

Neobankların yaradılması elə də uzun tarixçəyə malik deyil. Bu səbəbdən də müştəri etibarını qazanması üçün uzun müddət vaxt lazımdır. Onların bir çoxu son bir neçə ildə yaradılıb və istənilən digər startaplar kimi uğursuzluqla rastlaşa bilər. Əgər bu baş verərsə müştərilər üçün pul vəsaitlərinin itkisi ilə bağlı narahatçılığa ehtiyac yoxdur, çünki hesablardakı depozitlər adətən FDIC-də sığortalanan partyor-bankda saxlanılır. FDIC sığortası bank bağlandığı halda bir əmanətçiyə düşən 250000 dollar məbləğinədək sığortalayır. Lakin partyor-banka keçid məsələsi çətinliklə ola bilər.

Qeyd etmək lazımdır ki, ənənəvi banklar da öz növbəsində neobanklara müxtəlif reaksiya göstərirlər. Bir sıra ənənəvi banklar neobanklarla rəqabət aparırlar, bəziləri qarşılıqlı səmərə üçün onlarla partnyorluq edirlər, bəzi banklar isə öz neobanklarının yaradılmasına üstünlük verirlər. Misal olaraq, 2016-cı ildə ABŞ-ın ən iri banklarından biri olan Goldman Sachs öz neobankı

Marcus-u, GreenDot Bank isə Walmart ilə partnyorluq çərçivəsində GoBank neobankını yaradıb. Ümumilikdə rəqəmsal bankçılığa keçid hazırda bir çox bankların prioritet istiqamətlərindən birinə çevrilib. [8].

***Nəticə***

Nəticə etibarilə, əgər müştəri öz maliyyə məsələlərinin bir çoxunu onlayn həll etmək istəyirsə, neobank seçimi daha məqsədəuyğundur, çünki bu zaman komissiyalara qənaət edə, həmçinin faizlər qazana bilər. Lakin neobank əsasən hesabları avtopilotlar üzrə işləyən, nağd şəkildə pul yatırmaq, bank köçürməsini və ya hesab üzrə geniş xidmətlərdən istifadə etmək istəməyən müştəri üçün daha məqsədəuyğundur. Bir sıra alimlərin fikirlərini nəzərdən keçirərək isə, belə bir qərara gələ bilərik ki, bank innovasiyası – banka birbaşa və ya dolayı yolla gəlir gətirən, tətbiqi isə bank fəaliyyətində keyfiyyətli dəyişikliklərə gətirib çıxaran məhsul, xidmət və ya texnologiyadır. Burada söhbət əvvəllər təklif olunanlarla müqayisədə, daha cəzbedici istehlakçı xüsusiyyətlərinə malik olan xidmət və məhsuldan gedir.

**ƏDƏBİYYAT**


1. Abbasov Ə.M., Məmmədov Z.F. Bank işi və e-bankçılıq. Bakı, 2003, - 444 s.
2. Məmmədov Z.F Finans iqtisadiyyatı. –Bakı: Qanun, 2003. - 375 s.
3. Məmmədov Z.F Beynəlxaq valyuta–kredit münasibətləri. Dərslik. - Bakı, 2001, 2002, 2005,2008. IV nəşr, - 94 s.
4. Məmmədov Z.F. Pul, kredit və banklar, qiymətli kağizlar və valyuta. Suallara cavab. Bakı: Nasir, 2005. 200 s.
5. Богачев Е.Б. Экономика и банковский сектор: проблемы исследования и прогнозирования / Е.Б. Богачев, В.Д. Арнаутова, В.И. Полякова // Деньги и кредит. – 2001. – №12. – с. 563.
6. Введение в рейтинговую Систему CAMEL [Электронный ресурс]. – Режим доступа: http://bank-book.blogspot.ru/2008/03/camel.html.
7. Лаврушин О.И. Мировые тенденции развития банковскойдеятельности и банковских технологий // Современные банковские технологии: теоретические основы и практика / под ред. Н.Ф. Карпычевой. – М.: Финансы и статистика, 2005. – с. 10.
8. https://banker.az/neobanklar-yeni-n%C9%99sil-bankciliq/
9. Шапошников А. Межбанковская конкуренция и оценка конкурентоспособности коммерческих банков, - с.15



***Гюнель Гюндуз кызы Султанова,***
***Диссертант, Азербайджанский***
***Технологический Университет***
***gunel.bayramova.91@list.ru***

***Пери Амирахмед кызы Гасанова***
***доктор наук по экономике***
***Бакинский Государственный Университет***
***perihesenova80@gmail.com***


**Основные параметры конкурентоспособности банковского сектора Азербайджана и ее зависимость от инноваций**


***Резюме***

**Цель исследования** – определение основных параметров конкурентоспособности банковского сектора и его зависимости от инноваций.

**Методология исследования** – в исследуемой работе были применены различные подходы, в том числе метод сравнительного анализа.

**Практическая ценность исследования** – учитывая значимость банковского сектора в экономическом развитии, определенные меры в направлении обеспечения доступа к кредитным ресурсам имеют практическую ценность.

**Результат исследования** - обоснование влияния банковского сектора на экономику за счет применения продуктов, услуг или технологий, с использованием инноваций, которые прямым или косвенным образом приносят банку доход и приводят к качественным изменениям в банковской деятельности.

**Оригинальность и научная новизна исследования** - определение основных параметров конкурентоспособности банковского сектора и его зависимости от инноваций определяет важность научного аспекта исследования.

***Ключевые слова: доля рынка, финансовая устойчивость, конкурентоспособность, качество, уровень оказываемых услуг, стоимость банковского продукта, цифровой банкинг.***

***Gunel Gunduz Sultanova***
***dissertation candidate***
***Azerbaijan Technological University,***
***gunel.bayramova.91@list.ru***

***Pari Amirahmad Hasanova***
***doctor of science in economics,***
***Baku State University***
***perihesenova80@gmail.com***

**Main parameters of competitiveness of the banking sector of Azerbaijan and its dependence on innovation**

***Summary***

**The purpose of the study** is to determine the main parameters of the competitiveness of the banking sector and its dependence on innovation.

**Research methodology** – in the work under study, various approaches were used, including the method of comparative analysis.

**Practical value of the study** - given the importance of the banking sector in economic development, certain measures towards ensuring access to credit resources have practical value.

**The result of the study** is a substantiation of the influence of the banking sector on the economy through the use of products, services or technologies, using innovations that directly or indirectly bring income to the bank and lead to qualitative changes in banking activities.

**The originality and scientific novelty of the research** - the determination of the main parameters of the competitiveness of the banking sector and its dependence on innovation determines the importance of the scientific aspect of the research.

***Keywords: market share, financial stability, competitiveness, quality, level of services provided, cost of banking product, digital banking.***